BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2014*

UOT 1 (09); 1:2; 141. 45

# DEKART VƏ SPİNOZA FƏLSƏFƏSİNDƏ ALLAHIN VARLIĞI VƏ ONLARIN FİKİRLƏRİ ARASINDA OLAN MÜHÜM FƏRQLƏR

**Ə.N.PAŞAYEVA**
***AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu***
***pashayeva.ph@mail.ru***

*Dekart və Spinoza fəlsəfəsini əhatə edən cövhər* mövzusu onlardan sonra yaşayan filosofların tədqiq və təhlil mənbəyi olmuşdur. Filosofların bir çoxu Spinozanın yürütdüyü fikirlərində məhz Dekart fəlsəfəsinə müraciət etdiyini və Dekartın cövhər barəsində bildirdiyi fikirlərin ardıcılı olduğunu iddia etmişlər. Məqalədə Dekart və Spinozanın bu barədə fikirləri, xususilə cövhərlə bağlı olan mühüm mövzular və bunların ideyaları arasında olan ciddi fərqlərin mövcudluğu araşdırılaraq təhlil olunmuşdur.*

**Açar sözlər:** tanrı, varlıq, cövhər, hərəkət, fikir, ruh, maddə

Qərb fəlsəfəsini təhlil edərkən filosofların Allahın varlığı barəsindəki müxtəlif fikirləri oxşar olsa da, amma bəzi filosofların mütləq varlığın (absolute existence) elmi yolla dərk olunması üçün gətirdiyi qeyri-adi sübutları xüsusilə diqqəti cəlb edir. Bu fikirləri tədqiq və təhlil etmədən dərk etmək olduqca çətindir. Çünkü bu dahi filosofların irəli sürdüyü məntiqə əsaslanan dəlilləri tədqiqatçını düşünməyə vadar edir.

Filosoflar arasında həqiqi varlığı tədqiq edən filosoflardan Dekart (Rena Descartes) və Spinoza (Baruch Benedict Spinoza) daha çox təhlilə səbəb olur. Bu filosofların fikirlərinin bir-birinə oxşarlığı və Spinozanı Dekartın ardıcılı olduğunu bildirənlər də var. Daha dəqiq desək fəlsəfə tarixçiləri Spinozanı Dekartın fəlsəfi düşüncələrini əks etdirən filosof kimi tanıdırlar. Kaplistunun yazdığına görə Spinozanın cövhər və onun sifətləri barəsində olan düşüncələri Dekart nəzəriyyəsinə əsaslanır. O, Allahın  varlığını sübuta yetirmək üçün Dekartın irəli sürdüyü antolojik sübutlara (ontological proofs) müraciət etmişdir (1, 32). Bundan əlavə,  Jilson yazdığı "*Allah və Fəlsəfə*" adlı kitabında bildirir ki, ən böyük metafizikfilosoflardan sayılan Spinoza Dekartınardıcıllarından

* *cövhər-hər bir şeyin zatı deməkdir. Amma bu covhərin ümümi mənasıdır, məqalədə covhərin mənası müxtəlifdir.*

hesab olunur (2, 102). Kulpe yazır ki: Spinozanın cövhər barəsində olan fikirləri Dekartın düşüncələri ilə eynidir. Çünkü Dekart cövhəri vahid və həqiqi hesab edir (3, 158). Amma qeyd etmək lazımdır ki, doğrudanmı Spinoza Dekart ideyalarının ardıcılı və ya onun davamçısıdır? Bunu dəqiqləşdirmək üçün ilk növbədə Dekartın bu mövzu barəsində olan fikirlərini təhlil etməliyik.

Dekart hələ kiçik yaşlarından riyaziyyat elminə xüsusi maraq göstərmiş və onun fikrincə digər elmlərlə müqayisədə riyaziyyat elmi tam olaraq yəqinə əsaslanır. Amma fəlsəfə bəşəri ideyanın təməlidir və əgər fəlsəfə yəqinliyə çatmasa heç bir elmə etimad etmək olmaz. Dekart çalışır ki, yəqinliyi fəlsəfə və elmə daxil etsin. Elə buna görə də fəlsəfə də daxil olmaqla bütün humanitar elmləri xüsusi üsula uyğun olaraq (əsasən riyazi qaydalarla) elə tədqiq edirdi ki (riyaziyyatda olduğu kimi) yəqinlik əldə etsin. Onu da demək lazımdır ki, Dekartın yaşadığı dövrdə fizika və mexanika xüsusi olaraq inkişaf mərhələsində idi. Fizikanın mühüm suallardan biri bu idi ki, maddənin mahiyyəti nədən ibarətdir və hansı şeylər maddi və təbii cəryanlara səbəb olur? Bundan əlavə, hansı şeylər səbəb olur ki, müxtəlif təbii hadisələr (məsələn: yağışın yağması, ulduzların hərəkəti, nəbatat aləminin inkişafı, baş verən təbii fəlakətlər və s…) baş verir? O zamanlar təbiətə mexaniki və maddi baxışlar alimlər və hətta adı insanlar arasında çöx geniş yayılmışdır. Təbiətin bütün hərəkət və hadisələrinin məhz təbiətin özünə və onun maddəsinə bağlı olduğuna inanırdılar, nəinki qeyri-maddi varlıqların təsirinə; yəni onların fikrincə, təbiətdə baş verən hər şey fiziki qanunlara əsasən baş verir. Amma bütün bunları təbiətin maddi ünsürlrinə aid etməklə yaranan bəzi sualların cavabını almaq mümkün deyildir. Çünkü bizim zehnimizdə bir sıra suallar yaranır ki, bunların təbiətlə heç bir əlaqəsi yoxdur. Məsələn: bizim əməllərimizin və hərəkətlərimizin səbəbi nədir? Elə bu sualın özü zehni düşündürməyə vadar edir; bu ya cisimdir, ya başqa bir şey. Əlbəttə, cisim bizim cismimiz maddəmizdir və bizim əmrimiz əsasında hərəkət edir və biz öz əməllərimizin və rəftarlarımızın səbəbiyik. Amma bu "öz"ü nə deməkdir? Bu, bizim ruhumuzdurmu? İnsanın ruhu nə deməkdir? İnsanın cismi ilə ruhu arasında hansı bağlılıq mövcuddur? Çünkü insanın ruhu maddi deyil və o, qeyri-maddi maddəyə təsir edə bilərmi? Bu necə ola bilər? Bu kimi suallar Dekartı özünə cəlb edirdi və bunun da nəticəsində o "ikilik" (duality) nəzəriyyəsini irəli sürdü, yəni ruh və maddəni bir-birindən ayıraraq hər ikisinin özlərinə xas olan üstünlüklərini bəyan etdi.

Dekart öz fəlsəfini əsas iki üsul (tanrı və özünün varlığı) ilə başladı. Onun baxışlarına əsasən biz xarici aləmdə bəzi məfhumları dərk edirik ki, onlar maddi deyildirlər və bunlar hisslə deyil, məhz ağıl vasitəsilə dərk olunur. Məsələn: davamedici, (extension) enlilik, uzunluq, dərinlik, arasıkəsilməyən, boyunca və s... maddi olan hər hansı bir şey bu xüsusiyyətlərə malikdir və bu cür xüsusiyyətlər ağıl vasitəsilə dərk olunur. Bundan əlavə, deyiləndə ki, "mənim varlığım mövcuddur", məlumdur ki, bu çox aydın və heç bir təhlilə ehtiyacı olmayan fikirdir və aydın olduğu üçün də yəqinlik hasil edir. Elə buna görə də o şeylər ki, ağıl vasitəsilə (nəinki hisslə) dərk olunur, deməli, o doğru və

düzgündür və xarici aləmin (təbiət) real varlığını əks etdirir.

Dekart fəlsəfəsində üç üsulu əsas gətirərək bildirir ki, birinci düşünən varlıq, deməli mövcuddur; ikinci Allahın varlığı mövcuddur və üçüncü təbiət aləmi mövcuddur (4, 73-74). Dekartın fikrincə təbiətdə olan bütün mövcudlar iki hissəyə ayrılır, yəni bütün şeylər öz zatına bağlı olan iki cövhərdən (maddə və ruh) təşkil olunmuşdur. Bir-birindən fərqli olan iki məfhum özlərinə xas olan sifətlərdən ibarətdir.

Dekartın cövhər adlandırdığı maddə həmin hərəkət (arasıkəsilməyən və ya davamedici), yəni təbiət aləmidir və ruh adlandırdığı cövhər isə düşüncə və ya fikirdir. Bizi əhatə edən aləm zahiri (maddə) və daxili qüvvədən (fikir) ibarətdir. Nəfs və düşüncə xalis agahlıq və yəqinlikdir və heç bir fəzanı təsir altına salmır. Maddi cövhərdən fərqli olaraq bunu kiçik hissələrə ayırmaq olmaz. Ona görə ki, bu sabitdir, yəni hərəkətdə deyil. O, şey ki, qeyri-sabitdir və haldan-hala keçir, o, hissələrə ayrılmaq qabiliyyətinə malikdir. Amma maddə və onun xüsusiyyətləri xalis davamedici və ya arasıkəsilməyəndir. Maddə, nəfs və düşüncədən fərqli olaraq agahlığa malik deyildir. Onu məkan daxilində ən kiçik hissələrə belə ayırmaq olar. Varlıq və yaranış müstəqil və bir-birindən fərqli olaraq iki hissəyə bölünür ki, bunlar ruh və maddədən ibarətdir. Elə buna görə də Dekart *dualist* bir filosof kimi tanındı. Yuxarıda aparılan təhlillərdən məqsəd Dekart nəzəriyyəsi ilə yaxından tanış olmaq və onun fəlsəfi düşüncələrini düzgün dərk etməklə aşağıda gələn mövzular üçün zəminə hazırlamaqdır.

Göründüyü kimi, Dekart çalışır ki, özünün fəlsəfi üsullarına uyğun olaraq (həndəsi, riyazi və ən əsası mexaniki qanunlara əsaslanmaqla) Allahın varlığını dəlillərlə (proofs) sübuta yetirsin. O, qeyd edir ki, bizim Allah barəsində təsəvvürümüz vardır. Əgər Allah mövcuddursa, onda onun barəsində olan təsəvvür həqiqi reallıqdır və yaranan təsəvvürdən xarici aləmin reallığı da əldə olunur (4, 73-78). Allahın mövcud olmağı bizə əsas verir ki, onun zəruri olaraq mövcud olması bizim düşüncə tərzimizlə bağlıdır; çünkü bizim elmimizin onun zatına bağlılığı vardır. Dağ məfhumunu dərəsiz təsəvvür etmədiyimiz kimi allahın varlığını da mahiyyətsiz təsəvvür etmək mümkün deyil, ona görə ki, onun vücudu mahiyyətinə bağlıdır.

Dekart "Etirazlar və cavablar" adlı kitabında bildirir ki, əgər allah mövcud olmasa, mənim varlığımın olması qeyri-mümkün olardı və özümün indiki təbiətim olmazdı; həmin təbiət ki, allahın varlığını mənə tanıtdırır. İlk növbədə bizim allah barəsində olan məfhuma sahib olmağımız idrak vasitəsilə (intiotion) sübüta yetirilmişdir. Əgər deyək ki, allah barəsində heç bir təsəvvürümüz yoxdur, buradan belə bir nəticəyə gəlmək olar ki, heç bir sübut onun və yaratdıqları barəsində göstərilməyib (5, 240). Bizim idrakımız əbədi və mütləq bir varlığın zəruri olaraq mövcud olmasını dərk edir. Necə ki, üçkünc zəruri olaraq (yəni ola bilməz olmasın) iki düzbucaqlıya bərabərdir və elə buna görə də zəruri və əbədi olan varlıq bizim zehnimizdə kamil vücud təsəvvürünə malikdir; kamil və mütləq vücud təsəvvürü onun mövcudluğuna işarədir. Amma onu da qeyd etmək zəruridir ki, biz allahı təsəvvür etmək məcburiyyətində deyilik,

çünkü bu fitri bir təsəvvürdür, yəni istəsək də istəməsək də, onun varlığının təsəvvürü bizim zatımızdadır. Fitri məfhumların varlığı və xüsusilə Allahın varlığı onun kamil, mütləq və həm də qeyri-məhdud olmasına dəlalət edir və idrak vasitəsiz olaraq onun mövcudluğunu dərk edir. Əgər diqqət etsək, görərik ki, bu sübutun qüvvəsi çox güclüdür. Ona görə də bir şəxs ki, tanrı kəlməsini dərk edir, demək onun mütləq varlıq barəsində təsəvvürü vardır. Çünkü qeyri-məhdud olan bir məfhum digər məhdud məfhumlardan daha çox dərk olunur.

Amma burada mühüm bir nöqtəyə diqqət etmək lazımdır və o bundan ibarətdir ki, tanrı məfhumu digər məfhumlar kimi düzəldilən və ya xəyala əsaslanan bir məfhum deyildir ki, ancaq zehnin təsəvvürü olsun. Bəlkə bu məfhum zehnin əsl surəti və zati reallığıdır. Çünkü varlığı mahiyyətinə bağlı olan ikinci bir varlığı təsəvvür etmək olmaz. Həmçinin iki və ya bir neçə allahın eyni növdən olması da qeyri-mümkündür. Allahın varlığını və onun nəhayətsiz sifətlərini (əzəldən-axıra qədər) olduğu kimi dərk etmək lazımdır və onun varlığından bir şeyi azaltmaq və ya digər bir şeyi çoxaltmaq, həmçinin hər hansı bir şeyi ona aid etmək olmaz. Hər hansı bir şeyin düzgünlüyü və qəti olması təkcə onun varlığına bağlıdır və onun varlığını tanımadan heç bir şey barəsində təsəvvür əldə etmək olmaz. Əgər onun varlığını tanısaq, onda əşya barəsində təsəvvürə sahib olmuş oluruq. Bu düşüncə təkcə əqli məsələlərə aid deyil, bəlkə təbiət və ya cismani aləmə də şamil olunur; çünkü cismani aləm həndəsi mövzuların sübutudur.

Göründüyü kimi, Dekart mövcud aləmin səbəbkarı olan yaradanın axtarışındadır və bu barədə yazır ki, sonda, yaradanın Allah olduğunu dərk etdim (6, 47). O, Allahın varlığını sübuta yetirmək üçün üç sübut gətirmişdir. Gətirdiyi bu sübutları “Fəlsəfənin Üsulları” (Principles of Philosophy) və Düşüncələr (Meditation) adlı kitabında geniş tədqiq etmişdir. Fəlsəfə tarixində qeyd olunur ki, Dekartın gətirdiyi bu sübutlardan biri onun deyil və bu Anselmin allahın varlığı barəsində tədqiq etdiyi sübutdur. Amma “Təhlillər və tarixi başlanğıclar”adlı kitabda göstərilir ki, Dekartın, Anselmin bu barədə olan nəzəriyyəsinə, xüsusilə yazdığı əsərinə (Proslogium; Monologium) müraciət etməsi müəmmalıdır və tam olaraq demək olmaz ki, Dekart bu məsələdə Anselmin fikirlərinə müraciət etmişdir (7, 153). Dekart yuxarıda qeyd olunan əsərlərində bu üç cövhərin olmasını bildirir: sifət (attribute), cövhər (substance) və qeyri-məhdud cövhər (indefinite substance). Onun fikrincə, cövhərin reallığı sifətdən daha çoxdur; çünkü sifətin varlığı cövhərin varlığına bağlıdır. Qeyri-məhdud olan cövhər, yəni allahın digər cövhərdən və sifətdən həqiqi reallığı çoxdur və bütün məhdud olan cövhəri özündə birləşdirir. Dekart cövhəri əvvəl məxluqat aləminə, sonra isə allaha aid edir. O, bu barədə yazır ki, biz allahın varlığını sübuta yetirə bilərik və bu mümkün olan bir işdir; çünkü vücud allahın üstünlüyünü göstərəndir və onun zatına bağlıdır.

Məlum olduğu kimi, Dekart irəli sürdüyü sübutlarda da üç müxtəlif üsula diqqət etmişdir: birinci, allah varlığının təsəvvürü; ikinci, bizim məhdud varlığımızın ona ehtiacı olması; üçüncü, allahın öz zatına və varlığına ehtiyacı

olmasıdır. Onun öz zatına ehtiyacı olması yarnan aləmin mövcudluğudur. Aləmin yaranması, onun varlığının zəruri olması və varlığın zatına ehtiyacı olmasına sübutdur. Əgər onun varlığı zatına ehtiyacı olmasa, onda aləm yaranmaz. Biz onun varlığını təsəvvür edirik və bu təsəvvürdən varlığımızın ona ehtiyacı olduğunu dərk edirik.

Əgər bu iki filosofun fikirlərini bir-birləri ilə müqayisə etsək, görərik ki, bunların fikirləri arasında ciddi fərqlər mövcuddur. Əlbəttə, inkar etmək olmaz ki, Spinoza Dekartın fəlsəfi fikirlərindən istifadə etmiş, amma heç vaxt onun fəlsəfəsini tam olaraq qəbul etməmişdir. Yazdığı məktublarının birində bildirir ki, filosofların (Dekart və Bakon) ən mühüm və çatışmayan cəhətləri ondan ibarətdir ki, onlar hər bir şeyin yaradanını, yəni birinci illətini (first cause) tanımaqdan uzaqdırlar (8, Letter 2)

Qeyd etmək lazımdır ki, Spinoza iki sifəti allaha aid edir. Bunlardan biri "hərəkət" (extension) və digəri isə "fikir"dir (thought). Onun fikrincə, Allah bu iki sifət vasitəsilə mövcud aləmdə tanınır. Spinoza tam olaraq sifətin əsl anlayışını açıqlamaqla allahın varlığını dərk etmək və onun vücüdunu tanımaq üçün sifətin onun varlığına bağlı olduğunu bildirir (9, 156). Sifət təkcə cövhərin zatına bağlı deyil, həm də cövhər olmadan zahir ola bilməz. Amma, Dekart sifəti cövhərin varlığına bağlı olduğunu qeyd etsə də onun mahiyyətini açıqlamır və sifətin, ancaq cövhərin varlığına bağlı olduğunu bildirməklə kifayətlənir. Bundan əlavə, Dekart fəlsəfəsində cövhər məhdud və qeyri-məhdud bir varlıq kimi göstərilməklə vahid hesab olunmur. Özünün dediyi kimi, Allahdan başqa digər bir mövcud təsəvvür oluna bilər ki, vücud onun mahiyyətinə bağlı olsun, yəni o, varlığı sifət adlandırmaqla onu digər əşyalara şamil edir, amma Spinoza varlığı vahid hesab edir və bundan əlavə cövhəri əbədi və tək olan Allaha aid etməklə bütün yaranmışların onun varlığına bağlı olduğunu və hətta cövhər olmadan mövcud aləmdə yaranmamasını yazdığı Əxlaq (Ehics) adlı kitabında dəfələrlə qeyd etmişdir. "Hər nə varsa Allahın vücuduna bağlıdır və mümkün deyil, bir şey Allah olmadan yaranıb və təsəvvür olunsun" (10, 49).

Spinoza cövhər vasitəsilə həqiqi varlığı kəşf edir. Cövhər, onun sifətləri, mövcudluğu və təbiətlə vəhdət təşkil etməsi varlıq aləminin əsası hesab olunur. Spinoza səy edir ki, metafizik düşüncələrində Dekartın əsaslandığı ikilik ideyasını aradan aparsın və tanrı, ruh və maddə məfhumlarını birləşdirərək vahid cövhər anlamına gətirsin. "Mənim cövhər məfhumundan məqsədim odur ki, heç bir şeyə söykənmədən öz zatına əsasən təsəvvür olunsun" (10. 39, Letter 15), yəni cövhər müstəqil bir varlıq olmaqla öz zatına bağlıdır. Spinoza cövhəri vahid adlandırır; çünkü öz təbiətinə əsasən zahir olur və ozü-öz yaradanıdır. Amma Dekart cövhəri vahid hesab etmir o, cövhəri əvvəl təbiət aləminə sonra allaha aid edir. Spinoza cövhəri tam olaraq mütləq vücuda aid etməklə təbiətin də onun varlığına bağlı olduğunu bildirir. Cövhəri təbiətdən ayırmaq olmaz, maddi aləm də tək olan cövhərə bağlıdır. Bu cövhərin təbiət aləmi ilə yaxınlığı deməkdir, yəni hər şey onun yaratdığıdır və bunları yaratdığı üçün də onların öz daxilindədir. Onu təbiətdən kənarda axtarmaq olmaz, çünkü təbiət onun

varlığına bağlıdır.

Digər mühüm məsələ ondan ibarətdir ki, yuxarda qeyd olunduğu kimi, Dekart mövcud aləmdə iki cövhərin olduğunu bildirir, yəni bizi əhatə edən təbiət aləmində təkcə iki cövhər (ruh və maddə) mövcuddur və biz bunlar vasitəsilə real aləmi tanıyırıq. Bunlar ayrı-ayrı məfhum olsalar da, sonda bir varlıq kimi birləşirlər. Çünki təbiətə hakim olan mexaniki qanunlar qeyri-maddi və ya cövhər əhatəsində ümumiləşmiş fikir yarada bilmirlər. Ruh və maddənin necə vəhdət təşkil etməsini Dekart açıqlamır və onun bu barədə olan fikirləri ayrı-ayrı istiqamətə yönəlir, yəni cövhərin vəhdəti bir tərəfə qoyularaq onun yerini ikilik (duality) tutur. Amma bizə məlumdur ki, maddənin mahiyyəti davamedici və ya hərəkətdir, amma ruhun mahiyyəti isə düşüncə və ya fikirdir. Bunlar fərqli məfhumlardır; yəni iki cövhərin mahiyyəti bir-birindən fərqli olduğu kimi, həm də bəhrəsizdir və bunlar necə ola bilər ki, vahid bir varlıq anlamına gəlsin? Dekart bunu qətiyyən açıqlamır. Amma, Spinoza bunu çox dəqiqliklə bəyan etişdir. O, bu ikilik ideyasını qəbul etməyərək, hətta onu əhəmiyyətsiz adlandırmışdır. Cövhərin iki hissədən ibarət olması fikrini düzgün hesab etməyərək mütləq varlıq üçün hər növ çoxluğu rədd edərək təkcə bir cövhərin olduğunu bildirmişdir. İki cövhərin, biri yaradan və digəri isə yaranan olması mümkün deyil. Allahdan, onun sifətləri və onun yaratdıqlarından başqa digər bir şey mövcud deyil. Təkcə bir cövhər və ya bir varlıq mövcuddur və bu varlıq Allahdır. Allah hər şeyi əhatə edən bir varlıqdır; onun varlığı nəhayətsiz və bizi əhatə edən görüntülərdən (appearance) ibarətdir və bu nəhayətsiz görüntülər vasitəsilə ona xas olan sifətləri tanıyırıq. Biz fikirləşirik ki, hərəkət və fikir sifətləri cövhərdir və bunları zehnimizdə təsəvvür edirik. Əslində bu cür düşünmək də mümkündür, çünkü fikir və hərəkət cövhərin və ya əsl varlığın zahiri təzahürünü əks etdirir. Çünkü, təbiət varlığı hərəkət və ya davamedici prizmadan təhlil edir və insanın əməllərinə elə baxılır ki, sanki bunlardan xətt, səhifə və ya həndəsi cismlər anlaşılır. Bu fikrin əsası varlığın vacibliyini (absolute determination) bir daha sübuta yetirir; yəni bu aləmin yaradıcısı məntiqi zərurətə əsasən mövcud olmalıdır. Spinozanın fikrincə, biz cövhəri təbiətdən ayıra bilmərik; təbiət cövhərə bağlıdır. Cövhər özü-özünün yaradanıdır; təbiəti öz varlığına və varlığı da öz təbiətinə bağlıdır.

Spinozanın tədqiq etdiyi elmi əsası üç hissəyə ayırmaq olar.Birincisi hiss və təsəvvürdür ki, bunların ikisi də dəlillər və müxtəlif hadisələrlə əlaqə yaratmaqda və onların dərk olunmasında acizdir. Ona görə ki, biz hər hansı bir məsələni hissə və təsəvvürə deyil məhz ağıla əsaslanmaqla dərk edirik. İkincisi İnsan idrakın köməyilə tam olaraq ümumi məfhumları (təsəvvür, görmək, eşitmək və s. vasitəsilə xəyalımızda canlanan məfhumlar nəzərdə tutulur) əldə etməklə müxtəlif sübutların dərk olunmasına nail olur. Spinozanın fikrincə, bu da üstün elm hesab olunmur, çünkü bütün əşyaların təbiətdə yaranma səbəbini dərk etmək (məsələn, cövhəri) üçün insanın məhdud düşüncəsini qeyri-məhdud səbəblərə yönəltmək lazımdır. Amma bu mümkün deyil və bu bizim elmi qüdrətimizdən xaricdədir. Spinoza üçün ən üstün elm üçüncü elmdir. Onun

şühud (intiotion) adlandırdığı üçüncü elm dərin, canlı və cövhərin ruhi baxışlarını göstərən və bütün əşyaların həqiqi zatını əks etdirən elmdir. Spinoza elmin bu növünü *Allaha olan ruhi eşq* adlandırır. Bu elm vasitəsilə insan reallıqları və zahiri görüntüləri, olnların qanuna uyğunluqlarını və onların bir-birindən fərqli xüsusiyyətlərini dərk edir.

Spinoza üçün ən üstün elm, cövhəri elmi yolla tanımaqdan ibarətdir. Onun fikrincə, baş verən hər hansı bir səhv, elmin səhvi hesab oluna bilməz, bəlkə elmi həddin çatışmazlığıdır. Spinozanın elmi nəzəriyyəsi fitri ideyalara bağlıdır və bunlar ümumi məfhumlardır (notiones communes)·Bu ümumi məfhumlar insani ruha aid olmaqla təbiət aləmini üstəliyir, yəni təcrubədən öndədir. Cövhər, agahlıq və maddiyyat bu məfhumlardandır ki, məntiqi düşüncə qanunları hesab olunur. Bunlar həmin ümumi məfhumlardır ki, cövhərin sifətləri hesab olunan digər mövcudları əks etdirir.

Buradan belə bir nəticəyə gəlmək olar ki, Dekart, "mən düşünürəmsə, deməк varam" deyərək fəlsəfi ideyalarını məhz bu əsasla başladı, nəinki Allahın varlığı ilə. Çünkü onun baxışlarına görə təsəvvürün əsası ilk olaraq Allahı təlqin etmir (baxmayaraq ki, Allah varlığı mövcudluq baxımından hər şeydən öndədir). Amma Spinoza, nəinki təsəvvürün, hər şeyin zatının allaha bağlı olduğunu və heç bir şeyin ondan öndə olmadığını bildirir. Bu açıq-aşkar Dekart və Spinoza fikirlərinin tamamilə fərqli olduğunu göstərir. Nə Tomas və nə də Dekart heç fikir etmirdilər ki, məhdud əşyanı qeyri-məhdud varlığa, yəni allahın varlığına aid edəsən. Spinoza Dekartın bu barədə olan ideyasını rədd edərək ilahi cövhəri həm varlıq və həm də təbiət aləmində ilk olaraq bildirmişdir. Onun fikrincə fəlsəfi qanunların başlanğıcında mütləq varlığın təsəvvürü, hər şeydən əvvəl, qəbul olunmalıdır. Bu açıq-aydın göstərir ki, Spinoza özünün fəlsəfi mülahizələrində nəinki Dekartı heç bir filosofu təkrarlamamış və digər filosofların nəzəriyyəsinə istinad etməmişdir. Onun fəlsəfi üslubu tamamilə fərqlidir və yürütdüyü fikirlər riyazi və həndəsi qanunlara uyğun olmaqla dəlillər əsasındadır. Spinozanın tanıdığı allah aləmi yoxluqdan yaradan allah deyildir. Onun fikrincə, aləm yaranmamışdır, çünkü onun əvvəli və axırı vardır. Aləm əbədi allah və ya ilahi varlığı əks etdirən görüntülərdən ibarətdir və allah, cövhər və təbiət ayrı-ayrı kəlmələrə aid olsa da, məna baxımından eynidirlər. Bu Spinozanın məntiqə əsaslanan ən üstün metafizik nəzəriyyəsidir.

**ƏDƏBİYYAT (ingilis dilində)**

1.(7).Dicker, George. Descartes: **An Analytical and Historical İntroduction.** New York, Oxford University, 1993.
2.(6). Elizabeth Anoscimbe and Peter Thomas Geach, with introduction by Alexandre Koyre, Nelson.**Philosophical Writings a Selection.**part 6, 1964.
3.(10). Spinoza, Benedict. The Ethics. With An Intruduction by Frank Sewall, M. A. Translated from the Latin by R. H. M. Elwes, New York, 1951. part 1, pp. 15. definitions 3, p. 39, **The correspondence of Spinoza,Letter.** Translated by Wild J. New York 1958.
4.(8). **The correspondence of Spinoza.Letter.** Translated by M. Elwes.New York 1951.
5.(9). Wolfson, Harry Austryn.**The philosophy of Spinoza.**Vol. 1, New York, 1969.

**Ədəbiyyat (Ərəb vəFars dilində)**

. 6

Uzqələ Kulpe. **Fəlsəfənin başlanğıcı.**Əbu əla Əfifinin ərəb dilində şərhi və əlavə izahlarına istinad olunur.Üçüncü nəşr, Qahirə 1955.

7

Dekart Rene. **İlahi fəlsəfədə düşüncələr.** Tərcüməçi: Əhməd Əhmədi. Tehran adına Universitetin nəşriyyat mərkəzi, Tehran 1369.

8

Dekart Rene. **Etirazlar və cavablar**. Tərcümə və şərh: Əli Musayi Əfzəli. Elm və mədəniyyət nəşriyyatı, Tehran 1386.

9

Jilson, Atin. **Allah və Fəlsəfə.** Tərcümə: Şəhram Pazuki. Hikmət nəşriyyatı, Tehran 1374.

10

Copleston, Frederick. **Spinoza.** Tərcümə və izahlar: Seyyid Mühəmməd Həkkak. Hikmət nəşriyyatı, Tehran 1373.

## БЫТИЕ БОЖЬЕ В ФИЛОСОФИИ ДЕКАРТА И СПИНОЗЫ И РАЗЛИЧИЯ МЕЖДУ НИМИ ПО ЭТОМУ ВОПРОСУ

**А.Н.ПАШАЕВА**

**РЕЗЮМЕ**

Понятие сущности которое характерно философии Декарта и Спинозы исследовалось и анализировалось многими философами, которые жили после них. Многие из них считали, что идеи выдвинутые Спинозой происходят от декартовской точки зрения по проблеме сущности и он был его последователем в этом вопросе.

В данной статье изложены мысли Декарта и Спинозы по этому вопросу, проведен их сравнительный анализ и выявлены значительные различия между ними.

**Ключевые слова:** Бог, бытие, сущность, движение, мысль, душа, материя.

## GOD OF EXISTENCE AND SIGNIFICANT DIFFERENCES BETWEEN THEIR VIEWS PHILOSOPHY DESCARTES AND SPINOZA

**A.N.PASHAYEVA**

**SUMMARY**

Descartes and Spinoza's philosophy, which covers the subject substance has been explore and analyze sources of the philosophers who were after them. Philosophers have claimed that Spinoza applied to Descartes philosophy and became follower of the concept of Descartes infusion.

Descartes and Spinoza's views on this article, which is especially important topics related with substance, and significant differences between these ideas have been investigated and analyzed.

**Key words:** God, existence, substance, extension, thought, spirit, matter